www.sinaqimtahani.net
Bu fənndən sınaq imtahanı ver

00031_Az_YAYM26_Əyani_Yekun imtahan

00031 Menecment

1 "Qazanılmış tələbatlar" nəzəriyyəsinə aid olmayan tələbatı müəyəyn edin:
- [x] Özünü reallaşdırma;
- [ ] Sosial;
- [ ] Hakimiyyət;
- [ ] Uğur;

2 Uğur, aidiyyat və hakimiyyət tələbatlarını özündə cəmləşdirən motivasiya nəzəriyyəsini müəyyən edin:
- [ ] Ədalət nəzəriyyəsi
- [ ] Gözləmə nəzəriyyəsi
- [ ] Tələbatların iyerarxiyası nəzəriyyəsi
- [ ] Porter-Louler modeli
- [x] D.Mak-Klelandın "Qazanılmış tələbatlar" nəzəriyyəsi

3 Yüksək idarəetmə mədəniyyətinə malik olan menecer bir sıra xüsusiyyətlərə malik olmalıdır. Səhv fikri göstərin.
- [x] İstehsalın idarə edilməsi ilə bağlı bütün incəlikləri bilməlidir
- [ ] Daha uzağı görmək qabiliyyətinə malik olmalıdır
- [ ] İnsanları motivasiya etmək bacarığına malik olmalıdır
- [ ] Öz işini yaxşı bilməli, dediyi sözlərin həqiqiliyinə inanmalıdır
- [ ] Kollektiv əməkdaşlarının enerji və istedadlarından düzgün istifadə etməyə qabir olmalıdır

4 Bu liderin fəaliyyət üslubu belə xarakterizə olunur: cidd nizam-intizam, dəqiq vəzifə bölgüsü, onunla mübahisə edilmir, hamı onun qərarlarına birmənalı şəkildə tabe olur:
- [ ] liberal fəaliyyət üslubu
- [ ] fərdi fəaliyyət üslubu
- [x] avtoritar fəaliyyət üslubu
- [ ] çevik fəaliyyət üslubu
- [ ] demokratik fəaliyyət üslubu

5 Milli yekcinsliyin əlamətləri aşağıdakı variantların hansında düzgün şərh edilməmişdir?
- [x] müxtəlif coğrafi və iqlimi ərazidə yaşama;
- [ ] eyni coğrafi və iqlimi ərazidə yaşama, eyni dildə danışma, birgə tarixin olması;
- [ ] adət və ənənlərdə, dini və mifik inanclarda eynilik, eyni nağıllarla və s. ilə tərbiyə olunma;
- [ ] həyat tərzində və davranışında eyni mental və psixoloji dəyərlərin olması;
- [ ] oxşar mətbəxə malik olma və eyni ərzaqlarla , su ilə qidalanma; vahid dövlətdə yaşama;

6 İnsanda müəyyən fəaliyyəti yaradan nə adlanır?
- [ ] stimul;
- [ ] qıcıq;
- [x] motiv;
- [ ] katalizator;
- [ ] tələb;

7 Hansı variantda idarəetmə aparatının quruluşu tam və düzgün verilmişdir?
- [x] idarəetmə həlqələri və pillələrinin miqdarı, tərkibi, onların tabeçiliyi və qarşılıqlı əlaqəsi;
- [ ] idarəetmə həlqələri və pillələrinin ardıcllığı və müntəzəmliyi;
- [ ] idarəetmə həlqələri və pillələrinin ardıcıllığı;
- [ ] idarəetmə pillələrinin miqdarı, tərkibi, tabeçiliyi və əlaqəsi;
- [ ] idarəetmə bölmələrinin tabeçiliyi və qarşılıqlı əlaqəsi;

8 Standartların əsas funksiyası nədir?
- [ ] İstehsal xərclərini azaltmaq
- [ ] İşçilərin işdən çıxarılmasına əsas vermək
- [ ] Effektiv informasiya mübadiləsini yaratmaq
- [ ] Təşkilatın missiyasını müəyyən etmək
- [x] Gələcəkdə faktiki nəticələri müqayisə etmək üçün ölçü vahidi yaratmaq

9 Müasir nəzarət texnologiyalarına nə aiddir?
- [ ] Yalnız şifahi göstərişlər sistemi

- [x] Bençmarkinq, kontrollinq və total keyfiyyət menecmenti
- [ ] Büdcə tərtibi
- [ ] Menecerlərin şəxsi müşahidəsi
- [ ] Yalnız inzibati cəzalar sistemi

10 Nəzarət prosesinin birinci mərhələsi hansıdır?
- [ ] Düzəliş tədbirlərinin görülməsi
- [x] Standartların və meyarların müəyyən edilməsi
- [ ] Motivasiya tədbirlərinin seçilməsi
- [ ] İşçilərin davranışının ölçülməsi
- [ ] Əks əlaqənin yaradılması

11 Nəzarətin əsas məqsədi nədir?
- [ ] Yalnız bazar payını artırmaq
- [ ] Yalnız xərcləri azaltmaq
- [ ] Rəqabət mühitini gücləndirmək
- [ ] Təşkilatın məqsəd və vəzifələrini müəyyən etmək
- [x] Qərarların qəbulu ilə icrası arasındakı vəhdətliyi təmin etmək

12 Matris idarəetmə strukturunda aşağıdakı hallardan hansına daha çox rast gəlinir?
- [x] İşçi həm rəhbərə, həm də proqram-layihə rəhbərinə tabe olur
- [ ] Bütün qərarlar yalnız təsadüfən qəbul olunur
- [ ] Ən sadə təşkilati quruluşdur
- [ ] Bazar konyukturasınının tələblərinə cavab vermir
- [ ] İşçi yalnız bir xətti rəhbərə tabe olur

13 Funksional idarəetmə sisteminin mahiyyəti nədən ibarətdir?
- [ ] İdarəetmə yalnız bir rəhbər tərəfindən həyata keçirilir
- [ ] İdarəetmə yalnız coğrafi bölgü əsasında qurulur
- [x] İşlər funksiyalar üzrə ixtisaslaşmış bölmələrə həvalə olunur
- [ ] Hər bir işçi yalnız bir istehsal sahəsində tabe olur
- [ ] İxtisaslaşıdırılmış bölmələrin olmaması ilə xarakterizə olunur

14 İdarəetmə aparatına qoyulan “optimallıq” tələbi nəyi nəzərdə tutur?
- [ ] İdarəetmənin tam mərkəzləşdirilməsini
- [ ] İdarəetmənin qeyri-mərkəzləşdirilməsini
- [ ] Yalnız yuxarı rəhbərliyin qərar verilməsini
- [x] Həlqələrin sayının minimum, əlaqələrin isə səmərəli olmasını
- [ ] Məlumatların təhrif edilmədən ötürülməsini

15 Divizional strukturun əsas xüsusiyyəti nədir?
- [x] İri şirkət daxilində məhsul, region və bazar üzrə muxtar bölmələr yaradılır
- [ ] Yalnız elmi-tədqiqat müəssisələrində tətbiq olunur
- [ ] Startaplarda istifadə olunur
- [ ] Funksional bölmələrin olması ilə xarakterizə olunur
- [ ] Kiçik müəssisələr üçün nəzərdə tutulur

16 İdarəetmənin təşkilati quruluşu nəyi müəyyən edir?
- [x] Təşkilatda icraçıların və rəhbərlərin vəzifə, rol və məsuliyyətlərini
- [ ] Təşkilatın miqyasını
- [ ] Təşkilatın fəaliyyət xüsusiyyətlərini
- [ ] İşçilərin psixoloji xüsisiyyətlərini
- [ ] Qiymətlərin formalaşması mexanizmi

17 Şaquli əlaqə nəyi göstərir?
- [ ] İşçilərin motivasiya səviyyəsini
- [ ] Eyni səviyyəsi bölmələr arasındakı əməkdaşlığı
- [ ] Təşkilatın miqyasını və fəaliyyət xüsusiyyətlərini
- [x] Rəhbərlik və tabeçilik münasibətlərini
- [ ] Satış bazarının vəziyyətini

18 İdarəetmənin təşkilati quruluşu nəyi ifadə edir?
- [ ] Məhsulun maya dəyərini
- [ ] İdarəetmə funksiyalarının qarşılıqlı əlaqəsini
- [ ] İşçilərin motivasiya üsullarını

- İstehsalın texniki silahlandırma səviyyəsini
- İdarəetmə sisteminin daxili formasını və əmək bölgüsünü

19 Davranış məhdudiyyətləri qərar qəbuluna necə təsir edə bilər?
- İşçi motivasiyasına müsbət təsir göstərir
- Heç bir təsir göstərmir
- Rəhbərlər probelmi və alternativləri fərqli qavradığından münaqişə və narazılıqlar yarana bilər
- Yalnız texniki səhvlərə səbəb olur
- Yalnız hüquq məsuliyyəti artırır

20 Müəyyənlik şəraitində qəbul olunan qərarın əsas xüsusiyyətləri hansıdır?
- Nəticələrin ehtimalları məlumdur, amma nəticənin özünü demək olmur
- Qərar yalnız intuitivdir
- Anlternativ yoxdur
- Alternativlərin hər birinin nəticəsi dəqiq məlumdur
- Nə nəticə nə ehtimallar məlumdur

21 Rasional qərar ilə mülahizələrə əsaslanan qərar arasındakı əsas fərqi nədir?
- Mülahizələr riyazi modellərə, rasional qərarlar isə intuisiyaya əsaslanır;
- Rasional qərarlar həmişə intuitivdir, mülahizələrə əsaslanan qərarlar isə proqramlaşdırılmış olur;
- Mülahizələrə əsaslanan qərarlar keçmiş təcrübəyə, rasional qərarlar isə obyektiv analitik prosesə əsaslanır;
- Onların arasında heç bir fərq yoxdur;
- Rasional qərar yalnız rəhbərin hisslərinə, mülahizələrə əsaslanan qərarlar isə iqtisadi təhlilə əsaslanır;

22 Proqramlaşdırılmış qərar üçün xarakterik olan cəhət hansıdır?
- Situasiya tamamilə yenidir, yeni yanaşma tələb edir
- Yalnız yüksək riskli situasiyalarda tətbiq edilir
- Addımların müəyyən ardıcıllığı qabaqcadan məlumdur və alternativlər məhduddur
- Qərar hər dəfə sıfırdan düşünülür
- Heç bir normativ və qaydaya əsaslanmır

23 Proqramlaşdırılmamış qərarın səciyyəvi xüsusiyyəti nədir?
- Yalnız aşağı səviyyə menecerləri tərəfindən qəbul olunur
- Qaydalar və prosedurlar əvvəldən tam məlumdur
- Rutin, təkrarlanan situasiyalara görə verilir
- Yeni, mürəkkəb, strukturu tam müəyyən olunmayan situasiyalarda qəbul olunur
- Həmişə qısamüddətli olur

24 İdarəetmə qərarlarının əsas fərqləndirici xüsusiyyətlərindən biri olmayanı seçin:
- Yalnız şəxsi maraqlara əsaslanması
- Məqsəd yönümlü
- Nəticələrin geniş iqtisadi-sosial təsiri
- Əmək bölgüsü şəraitində qəbul olunması
- Peşəkarlıq tələbi

25 İdarəetmə prosesində qəbul olunan qərarlar əsasən nəyi əks etdirir?
- Yalnız dəyişikliklərlə bağlı məlumatları
- Təşkilatın fəaliyyəti ilə bağlı rəhbərin şəxsi istəyini
- Yalnız hüquqi normaları
- Rəhbərlərin məntiqi-təfəkkür və emosional-psixoloji durumunu
- Təşkilatın texniki-təşkilati göstərişlərini

26 İstehsal kooperativləriylə bağlı səhv fikri göstərin.
- Kooperativin idarə edilməsində onun bütün üzvləri bərabər hüquqa malikdir
- Kooperativ üzvlərinin sayı qanunvericiliklə məhdudlaşdırılmır
- Kooperativ ləğv edildikdən və kreditorların tələbləri ödənildikdən sonra yerlə qalan əmlak eyni qaydada bölüşdürülür
- Əmlak eyni qaydada bölüşdürülür

27 Müəssisə rəhbəri 2024-2025-ci il üçün maddi imkanı aşağı olan işçilərin müəyyən edilməsini və onlara yardımlar edilməsi əmrini imzalayır. Bu zaman rəhbər hansı motiv növündən istifadə edir?
- Maddi motiv
- Mənəvi motiv
- İctimai motiv
- Daxili motiv
- Könüllü motiv

28 Nəzarətin əsas vəzifələrinə aşağıdakılardan hansılar aid deyildir?
- Kənarlaşma hallarının səbəblərinin aşkara çıxarılması
- Hər hansı bir dövr üçün nəzarət edilən obyektin real vəziyyətinin qiymətləndirilməsi
- Kənarlaşma hallarının konkret istiqamətinin müəyyən edilməsi
- Bunlar əsasında yoxlanılan obyektin fəaliyyətinin qaydaya salınması üçün təsirli tədbirlərin görülməsi
- İşçilərə olan tələbatın müəyyən olunması

29 Orijinallıq müşahidə olunmayan, köhnə qərarların təkrarı kimi səslənən qərarlar necə adlanır?
- Tarazlaşmış qərarlar
- İnert qərarlar
- İntuitiv qərarlar
- İnsayt qərarlar
- İmpulsıv qərarlar

30 Planlaşdırma funksiyası çərçivəsində idarəçilik fəaliyyətinin dörd funksiyası fərqləndirilir.Yanlış variantı müəyyən edin:
- resursların bölüşdürülməsi
- xarici mühitə adaptasiya
- daxili koordinasiya
- təşkilatın strateji uzaqgörənliyi
- təşkilati strukturun formalaşması

31 "İdarəetmə- nizamsız kütləni effektiv məqsədyönlü və məhsuldar qrupa çevirən fəaliyyət növüdür" fikri kimə məxsusdur?
- Anri Fayol
- Maks Veber
- Fredrik Teylor
- Piter Druker
- Elton Meyo

32 Təşkilatın mövcud olması üçün zəruri oan birinci şərt (tələb) hansı variantda düzgün verilmişdir?
- vahid məqsədin olması;
- birgə işləmək arzusunun olması;
- motivasiyanın olması;
- müvəqqəti məqsədlərin olması;
- iki və daha çox şəxsin olması;

33 Daima dəyişən xarici mühit şəraitində bu mühitə daha yaxşı uyğunlaşmağa imkan verən rəqabət üstünlüklələrin formalaşması və inkişafı strateji menecmentin hansı vəzifəsidir?
- gündəlik;
- ikinci dərəcə;
- əsas;
- aralıq;
- əhəmiyyət kəsb etməyən;

34 Aşağıdakı variantlardan hansı müəssisələrin müflisləşməsinin birinci mərhələsidir?
- Nağd vəsait üzrə çətinliklərin yaranması;
- Heç biri;
- Müəssisənin maliyyə fəaliyyətinin qismən pozulması;
- Müəssisənin bütün maliyyə-təsərrüfat fəaliyyətinin pozulması;
- Borclu nəğd vəsait taparaq yüksək faizlə dividentlər ödəməkdə davam edir;

35 Gələcəkdə də analoji işləri yerinə yetirmək nəzərdə tutulduğu halda təşkilatın rəhbərliyinə planlaşdırma üçün zəruri olan informasiya verilməsi ilə bərabər son nəzarət ikinci hansı funksiyanı yerinə yetirir?
- Həvəsləndirmə;
- Mükafatlandırma;
- Mənəvi həvəsləndirmə;
- Stimullaşdırma;
- Motivasiya;

36 Vaxtına görə idarəetmə qərarları hansı variantda düzgün təsnifləşdirilib?
- strateji, uzun müddətli, qısa müddətli;
- orta müddətli, operativ, effektiv;
- taktiki, operativ, qısa müddətli;
- uzunmüddətli, orta müddətli, qısa müddətli;
- strateji, perspektiv, orta müddətli;

37 İdarəetmə qərarlarının qəbul edilməsi 3 mərhələldən keçir. Düzgün variantə müəyyən edin.
- qəbul, icranın rəşkili, nəzarət;
- işlənib hazırlanma, icra, rəhbərlik;
- qəbul, məqəsdləri aydınlaşdırmaq, icra və ona nəzarət;
- işlənib hazırlanma, qəbul, icraya rəhbərliyi və ona nəzarət;
- məqsədi müəyyən etmək, qəbul, icra;

38 Rəsmi stasusa malik olma baxımından kommunikasiyanın növləri hansı varianta düzgün göstərilmişdir?
- şaquli, üfuqi;
- formal, qeyri-formal;
- ormal, qeyri-formal, şaquli;
- operativ, şaquli, üfuqi;
- formal, şaquli;

39 Rəsmi stasusa malik olan kommunikasiyalar necə adlanır?
- formal;
- operativ;
- qeyri-formal;
- şaquli;
- üfuqi;

40 Azərbaycan menecmentinin özəlliklərindən söhbət aşarkən orta azərbaycanlının yaşam devizi hansı variantda düzgün şərh edilmişdir?
- hər şey hörmət qazanmaq, mövqe tutmaq üçün;
- hər şey kollektiv üçün, ümumi rifah üçün;
- hər şey korporasiya və rəqabətə davam gətirmək üçün;
- hər şey dövlət üçün, sosial rifah üçün;
- hər şey ailə üçün, hər şey ailənin rifahı üçün;

41 Teylor neçə prinsipi irəli sürmüşdür?
- 14;
- 12;
- 7;
- 5;
- 10;

42 Strategiyaların işlənib hazıranması və reallaşdırılması üzrə təşkilatın fəaliyyət ardıcıllığını müəyyən edən prosesi necə adlandırılır?
- qısa müddətli idarəetmə;
- operativ idarəetmə;
- perspektiv idarəetmə;
- uzunmüddətli idarəetmə;
- strateji idarəetmə;

43 Fərdi adamlar, adamlar qrupu və bütövlükdə təşkilatlar nəzarətin nəyi qismidə çıxış edə bilər?
- obyekti;
- şərti;
- prinsipi;
- məqsədi;
- subyekti;
- obyektidir;

44 Orta azərbaycanlıya xas olan üç cəhət hansı variantda düzgün verilir?
- özünü hamıdan üstün tutmaq, öz mövqeini qorumaq, səhlənkarlıq;
- səxavətlik, əliaçıq, eqoizim;
- individuallıq, eqoizim, özündən razılıq;
- başqalarına şübhə ilə yanaşma, eqoizim, həmdəmxəyalıq;
- səxavətlik, individuallıq, eqoizim;

45 Variantlardan birində psixologiya elmində liderlərin qəbul edilmiş təsnifatına aid olmayan variantı göstərin.
- öndə gedən lider;
- universal lider;
- ruhlandıran lider;
- situasiyaya görə lider;
- işgüzar lider;

46 Proqramlaşdırılmış qərarlar nə deməkdir?

- tamamilə qeyri-müəyyən şəraitdə qəbul olunan qərarlar
- yeni və unikal problemlər üçün qəbul edilən qərarlar
- standart, təkrarlanan situasiyalar üçün hazır qaydalar əsasında qəbul olunan qərarlar
- strateji səviyyədə qəbul edilən qərarlar
- təşkilatın missiyasını müəyyən edən qərarlar

47 İdarəetmə qərarının qəbul edilməsinin ilk mərhələsi hansıdır?
- alternativlərin müəyyən olunması
- qərarların yerinə yetirilməsi üzərində nəzarət
- problemin müəyyən edilməsi
- məhdudiyyətlərin müəyyən olunması
- qərarın icrası

48 Herzberg nəzəriyyəsinə görə aşağıdakılardan hansı gigiyenik amildir?
- iş şəraiti
- tanınma
- məsuliyyət
- peşəkar inkişaf
- nailiyyət

49 A.Maslounun "Tələbatların iyerarxiyası" nəzəriyyəsinə görə ən yüksək səviyyədə hansı tələbat dayanır?
- fizioloji tələbat
- sosial tələbatlar
- hörmətə olan tələbat
- təhlükəsizlik tələbatı
- özünüreallaşdırma tələbatı

50 Mak-Klellandın "Qazanılmış tələbatlar" nəzəriyyəsinə görə aşağıdakılardan biri əsas tələbat deyil:
- uğur tələbatı
- məsuliyyət tələbatı
- bir qrupun üzvü olmaq tələbatı
- üzvlük (mənsubiyyət) tələbatı
- hakimiyyət tələbatı

51 Herzbergin iki amil nəzəriyyəsində hansı amillər işçinin əmək məhsuldarlığını artırır?
- daxili mühit amilləri
- xarici mühit amilləri
- təbii amillər
- gigiyenik amillər
- motivatorlar

52 Artım davranışı üçün xarakterik olan hansı xüsusiyyətdir?
- davamlı və tədrici genişlənmə
- bazara yeni məhsullarla ani çıxış
- yüksək riskli investisiyalar
- yüksək qeyri-müəyyənliklə fəaliyyət
- tez-tez bazar dəyişikliklərinə uyğun çevrilmə

53 Sahibkar davranışı aşağıdakılardan hansı ilə xarakterizə olunur?
- yeni imkanların axtarışı və innovativ qərarlar
- riskdən maksimum qaçmaq
- yalnız mövcud bazarda fəaliyyət göstərmək
- yalnız sabit istehsal həcmini qorumaq
- təşkilatın böyüməsini məhdudlaşdırmaq

54 Artım davranış tipinin əsas məqsədi nədir?
- yüksək riskli innovasiyalara sərmayə yatırmaq
- minimum risklə işləmək
- yeni bazarlara qəfil və radikal daxil olmaq
- təşkilatın bazarda mövqeyini qorumaq və möhkəmləndirmək
- mövcud məhsulların istehsalını azaltmaq

55 Xarici mühitin təhlili zamanı aşağıdakılardan hansı nəzərə alınmır?
- sosial amillər
- hüquqi dəyişikliklər

- kadrların şəxsi maraqları
- rəqiblər
- texnoloji faktorlar

56 Missiya ilə bağlı səhv fikri müəyyən edin:
- Missiya-təşkilatın strategiyasının müəyyənləşdirdiyi ali məqsəddir
- Missiya- xarici mühit subyektləri üçün təşkilat haqqında ümumi fikir yaradır
- Missiya-inkişafın müxtəlif səviyyələrində məqsədlərin və strategiyaların müəyyənləşdirilməsi üçün orientirləri müəyyən edir
- Missiya təşkilatın mövcudluğunun əsaslandırılmasıdır
- Missiya-məqsədlərin müəyyən olunması üçün baza rolunu oynayır

57 Strateji planlaşdırma menecmentin hansı istiqamətinin yaranmasının əsası olmuşdur?
- marketinqin idarəedilməsi
- strateji menecmentin
- antiböhranlı idarəetmənin
- heyətin idarə edilməsinin
- innovasiya menecmentinin

58 Strateji idarəetmənin əsas məqsədi nədir?
- təşkilatın uzunmüddətli inkişaf istiqamətini müəyyənləşdirmək
- işçilərin gündəlik fəaliyyətinə nəzarət etmək
- maliyyə hesabatlarını hazırlamaq
- rəhbərlərin şəxsi qərarlarını əsaslandırmaq
- yalnız marketinq fəaliyyətlərini artırmaq

59 Strateji idarəetmədə “vizion” nədir?
- Strateji nəzarət mexanizmi
- Marketinq fəaliyyətinin illik planı
- Təşkilatın maliyyə siyasəti
- Gələcəkdə hansı mövqedə olmaq istədiyini göstərən təsəvvür
- Təşkilatın hüquqi statusu

60 Məqsəd nədir?
- Məqsəd-insan qrupunun birgə işləyərək müvəffəqiyyət qazanmağa cəhd etdiyi konkret son vəziyyət və ya arzu edilən son nəticədir
- Məqsəd- müəyyən edilmiş prosedura və qaydaların məcmusunu əks etdirir
- Məqsəd-insanın öz üzərinə götürdüyü öhdəlikdir
- Məqsəd- təşkilatın mövcudluğunun əsaslandırılmasıdır
- Məqsəd-əvvəlcədən müəyyən edilmiş üsullarla və qabaqcadan müəyyən edimiş müddətdə yerinə yetirilməli olan müəyyən işlər, işlər seriyası və ya işin bir hissəsidir

61 Kris Arqiris; Rensis Laykert; Duqlas Mak-Qreqor; Frederik Hersberq hansı elmi məktəbin banileridir?
- Psixologiya məktəbinin;
- Davranış qaydaları haqqında elmi məktəbin;
- Elmi idarəetmə məktəbinin;
- İnsan münasibətləri məktəbinin;
- Klassik məktəbin;

62 Yoldaşlıq müəssisələrinin növləri hansı variantda doğru verilmişdir?
- tam yoldaşlıq, inama (etibara) əsaslanan yoldaşlıq;
- şərikli yoldaşlıq, qarışıq yoldaşlıq;
- inama əsaslanan yoldaşlıq, perspektiv inkişafa əsaslanan yoldaşlıq;
- inama əsaslanan yoldaşlıq, qismən yoldaşlıq;
- tam yoldaşlıq, şərikli yoldaşlıq;

63 Xogjkinsonun “Administrasiyanın fəlsəfəsi dair ”əsərində müəllif qeyd edir ki, əsil administator - filosofdur, menecer isə ..... Cümləni tamamlayın.
- sahibkardır
- nəzarətedicidir
- idarəedicidir
- tədqiqatçıdır
- texnoloqdur

64 Qeyd edilənlərdən biri Teylorizmin prinsiplərinə aid deyildir:
- vaxt sərfinin, hərəkətlərin, səylərin sərfinin elmi öyrənilməsi əsasında işlərin yerinə yetirilməsinin optimal metodlarından istifadə olunması

- standartlara əməl edilməsi
- əmək nəticələrinə görə ödəniş
- mühüm situasiyalarda qərar qəbul edən rəhbərlərə kömək məqsədilə kəmiyyət metodlarının inkişafı
- fəhlələrin daha çox xeyir verəcəyi iş yerlərinə təyin edilməsi, onların öyrədilməsi

65 İdarəetmənin həlqələri deyəndə-idarəetmənin müxtəlif…….malik olan müstəqil və xüsusiləşmiş hissəsi nəzərdə tutulur? Buraxılmış söz hansı variantda düzgün qeyd edilib.
- dəyərlərinə;
- metodlarına;
- prinsiplərinə;
- funksiyalarına;
- ardıcıllığına;

66 Məqsədli yanaşmanın işlənib hazırlanmasının vacib elementi nədir və bu hansı variantda düzgün verilmişdir?
- düzgün qərar verilməsidir;
- məqsədli proqramlardır;
- məqsədlər ağacıdır;
- ardıcıllığın gözlənilməsidir;
- məqsədli yanaşmadır;

67 Menecer sözü hansı sözə mənaca yaxındır?
- idarəedən
- sahibkar
- işçi
- mütəxəssis
- heyət

68 Xottorn eksperimentləri kimin rəhbərliyi altında keçirilib?
- Fris Rotlisberqerin və Maks Veberin rəhbərliyi altında
- Anri-Fayol və Lindal Urvikin rəhbərliyi altında
- Abraham Maslounun vəFrederik Teylorun rəhbərliyi altında
- Elton Meyo və Fris Rotlisberqerin rəhbərliyi altında
- Abraham Maslounun və Fris Rotlisberqerin rəhbərliyi altında

69 Biheyvorist məktəbin fərqləndirici xüsusiyyəti ondan ibarətdir ki,onun diqqəti insanın ..... yönəlmişdir. Cümləni tamamlayın.
- davranışına
- motivasiyasına
- əmək haqqına
- təhlükəsizliyinə
- karyerada yüksəlişinə

70 Lap dar çərçivədə ixtisaslaşmanın aparılması nəyə gətirib çıxarır?
- Əmək motivasiyasının yuksəkməsinə səbəb olur
- Ümümi fəaliyyətin səmərəliliyinin artmasına səbəb olur
- İxtisaslı kadrların yaranmasına səbəb olur
- Monotonluğa və ümümi fəaliyyətin səmərəliliyinin azalmasına gətirib çıxarır
- Zay məhsulların kütləvi şəkildə yaranmasına səbəb olur

71 İdarəetmənin ənənəvi olaraq bir elm kimi və tədqiqatların müstəqil sahəsı kimi qəbul edilməsinin başlanğıcı hansı əsər ilə bağlıdır?
- Oliver Şeldonun “İdarəetmənin fəlsəfəsi ”əsəri ilə
- Frederik Teylorun “Elmi idarəetmənin prinsipləri ”əsəri ilə
- Xyuqo Myunsterberqin “Psixilogiya və sənayenin effektivliyi” əsəri ilə
- Kiçik St.Corcun “İdarəetmə təfəkkürünün tarixi”əsəri ilə
- Henri Qantın”Əməyin təşkili” əsəri ilə

72 Elmi idarəetmə məktəbinin nümayəndələri hesab edirdilər ki, dörd əsas metoddan istifadə edərək əl əməyinin təkmilləşdirilməsi məqsədilə bir çox əməliyyatları təkmilləşdirmək olar.Yanlış metodu göstərin.
- ölçü
- müşahidə
- müzakirə
- məntiq
- təhlil

73 Qeyd edilənlərdən biri idarəetmə prinsiplərinə aid deyildir:
- planauyğunluluq və dinamizm;

- sistemlilik;
- idarəetmənin demokratikləşməsi;
- şəxsi mənafenin üstünlük təşkil etməsi;
- inteqrasiya və dəyərlərə istiqamətlənmə;

74 Qeyri-mərkəzləşdirilmiş nəzarət hansı halda tətbiq oluna bilər?
- Bürokratik təşkilatlarda tətbiq oluna bilər
- Rəhbərliyin işçilərə inamı olmayan müəssisələrdə tətbiq oluna bilər
- İşçilərin üzərinə düşən məsuliyyət çox olduqda
- İşçilərin peşə-ixtisas səviyyəsi zəif olan təşkilatlarda tətbiq oluna bilər
- Rəhbərliyin işçilərə inamı olan müəssisələrdə tətbiq oluna bilər

75 Marketinq-ehtiyacların və tələbatların mübadilə vasitəsilə ödənilməsinə yönəldilən peşəkar fəaliyyət növüdür. Bu tərif kimə məxsusdur:
- Filip Kotlerə
- Anri-Fayola
- Piter Drukerə
- Frederik Teylora
- Elton Meyoya

76 Situasiyalı yanaşmanın mahiyyətini izah edən cavab variantını müəyyən edin.
- İdarəetməyə bir-biri ilə qarşılıqlı əlaqədə olan elementlərin məcmusu kimi baxılır
- Situasiyalı yanaşma nöqteyi-nəzərindən düzgün qərar o qərardı ki, konkret vaxtda konkret situasiyaya daha çox uyğun gəlir
- Təşkilati məqsədlərə çatmaq üçün güclü nəzarət sistemi yaradılır
- Təşkilatın fəaliyyətinə kompleks yanaşılır
- Təşkilati məqsədlərə çatmaq üçün güclü seqmentasiya aparılır

77 Təşkilatın uğuru ... müəyyən olunur.
- daxili koordinasiya ilə
- bazar və dövlət tənziminin rasional birləşməsi ilə
- təşkilatın xarici mühitə uyğunlaşmaq qabiliyyəti ilə
- heyətin əməkhaqqının yüksəlməsi yolu ilə
- istehsalın rasional təşkili ilə

78 Səhmlərin növlərinə aid olmayan variantı müəyyən edin:
- nominal dəyərsiz
- adi
- adlı səhm
- imtiyazlı
- aktiv

79 Heyətin müxtəlif formalarda idarəetmə prosesində və mənfəətin bölqşdürülməsində iştirakını nəzərdə tutan idarəetmə prinsipi:
- idarəetmə sisteminn dayanıqlığı və mobilliyi prinsipi
- istiqamətin vahidliyi prinsipi
- idarəetmənin demokratikləşməsi prinsipi
- elmilik prinsipi
- motivasiya prinsipi

80 Mənfəət naminə iqtisadi risk edən mülkiyyətçi kimdir?
- funksional rəhbər
- təşkilatın rəhbəri
- sahibkar
- xətti rəhbər
- menecer

81 İlk dəfə bu insan əməyi idarəedici və icraedici əməyə bölmüşdür:
- Anri-Fayol
- F.Kotler
- L.Urvik
- A.Maslou
- F.Teylor

82 Xottorn tədqiqatları hansı məktəb çərçivəsində aparılmışdır?
- psixologiya və insan münasibətləri məktəbi
- insan davranışı məktəbi

- elmi idarəetmə məktəbi
- klassik və ya inzibati məktəb
- idarəetmə elmi məktəbi

83 İşçi heyətinin ixtisas səviyyəsinin aşağı olması təşkilatların fəaliyyətinə təsir göstərən hansı amillər qrupa aiddir?
- birbaşa dolayı amillər qrupuna
- fors-major amillərə
- mücərrəd daxili amillər qrupuna
- real daxili amillər qrupuna
- birbaşa xarici amillər qrupuna

84 Bu-təşkilatın fəaliyyətinin əsas qayda və qanunauyğunluqlarıdır:
- idarəetmə funksiyaları
- idarəetmə prinsipləri
- idarəetmə metodları
- idarəetmə mexanizmi
- rəhbərlik üslubları

85 "Çox zəhmət-çox qazanc" motivasiya prinsipi hansı məktəbin motivasiya prinsipi olmuşdur?
- idarəetmə elmi məktəbinin
- psixologiya və insan münasibətləri məktəbinin
- elmi idarəetmə məktəbinin
- davranış məktəbinin
- klassik və ya inzibati məktəbin

86 Biheyvorizm cərəyanı ilə bağlı səhv fikri göstərin:
- biheyvorizm cərəyanı elmi idarəetmə məktəbinin nəzdində yaranmışdır
- cərəyanın nəzəri lideri Con Uotson sayılır
- davranış sözü altında insanın psixi fəaliyyətinin xarici təzahürü başa düşülür
- biheyvorizm cərəyanı elmə yeni faktorların-davranış faktorlarının gətirilməsi ilə xarakterizə olunur
- bu cərəyanın tarixi Edvard Torndaykın heyvanlar üzərində apardığı tədqiqatlardan başlayır

87 İdaretmədə muzdlu şəxs kimdir?
- Mütəxəssis
- Menecer
- Sahibkar
- Mühasib
- İşçi

88 "Elmi idarəetmə" məktəbinin fəaliyyət göstərdiyi illər hansı variantda düz göstərilib?
- 1885-1920;
- 1930-cu ildən bu günə qədər;
- 1920-1950;
- 1930-1950;
- 1950-ci ildən etibarən;

89 "İdarəetmənin fəlsəfəsi" əsərində idarəetməni üç hissəyə bölən şəxsiyyət kimdir?
- L. Cilbert
- Q. Xorf
- F. Cilbert
- H. Qant
- O. Şeldon

90 Təşkilatın mövcud olması üçün zəruri olan birinci tələb hansı variantda düzgün verilmişdir?
- işləmək istəyin olması;
- əlverişli şəraitin olması;
- resursların mövcudluğu;
- iki və daha çox şəxsin olması;
- ümumi bir məqsədin olması;

91 Təşkilatın mövcüd olması üçün zəruri olan ikinci tələb hansıdır?
- birgə fəaliyyət göstərmək arzusunun olması;
- ümumi bir məqsədin olması;
- işləmək arzusunun olması;
- motivasiya;

- qeyri mərkəzləşməyə meyl;

92 Ümumi məqsədə və ya məqsədlərə nail olmaq üçün fəaliyyətləri şüurlu surətdə əlaqələndirilən insan qrupu dedikdə nə nəzərdə tutulur?
- qeyri-formal təşkilat;
- koordinasiya;
- sistem;
- proses;
- təşkilat;

93 Təşkilatın xüsusiyyətləri hansı variantda düzgün göstərilib?
- şaquli və üfüqi əmək bölgüsü;
- əmək bölgüsü, bölmələrin olması;
- resurslar, şöbələrin olması, daxili mühitdən asılılıq xarici aləmdən asılılıq və s.;
- resurslar, əmək bölgüsü, bölmələrin olması;
- resurslar, idarəetmədə əmək bölgüsü, xarici mühitdən asıllıq;

94 Planlaşdırma prosesi çərçivəsində idarəçilik fəaliyyətinin hansı əsas funksiyaları yerinə yetirilir?
- daxili işgüzarlıq, əməksevərlik koordinasiya, motivasiya;
- motivasiya, resursların bölüşdürülməsi, nizam-intizam yaratmaq;
- resursların bölüşdürülməsi, adaptasiya, daxili koordinasiya, təşkilatın məqsədinin öyrənilməsi;
- xarici mühitə uyğunlaşma, daxili adaptasiya, material resurslarının bölüşdürülməsi və s.;
- resursların bölüşdürülməsi, xarici mühitə adaptasiyası, daxili koordinasiya, təşkilatın strateji uzaqgörənliyi;

95 Henri Qant-idarəetmənin hansı məktəbinin nümayəndələridir?
- Klassik və ya inzibati məktəbin;
- Davranış məktəbinin;
- Psixologiya və insan münasibətləri məktəbinin;
- İdarəetmə elmi məktəbinin;
- Elmi idarəetmə məktəbinin;

96 A. Fayol idarəetmənin hansı məktəbinin banisi olmuşdur?
- İdarəetmə elmi məktəbinin;
- Psixologiya və insan münasibətləri məktəbinin;
- Davranış məktəbinin;
- Klassik və ya inzibati məktəbin;
- Elmi idarəetmə məktəbinin;

97 H. Emerson idarəetmənin hansı prinsipinin tədqiqatçısı kimi məşhur olmuşdur?
- Qərargah
- Funksional
- Divizional
- Proqram-məqsədli yanaşma
- Matris

98 Meri Parker Follet və Elton Meyo hansı idarəetmə məktəbinin nümayəndələri olublar?
- psixologiya və insan münasibətləri məktəbinin;
- empirik məktəbin;
- klassik və ya inzibati məktəbin;
- idarəetmə elmi məktəbinin;
- elmi idarəetmə məktəbinin;

99 Təşkilat termini müəyyən strukturu xarakterizə edir ki, burada insanlar …… nail olmaq üçün birləşirlər.
- qruplaşmaya;
- mənfəətə;
- məqsədlərə;
- prinsiplərə;
- şəxsi mənafelərə;

100 Əmək bölgüsündən asılı olaraq ixtisaslaşdırmanın aşağıdakı növlərini fərqləndirirlər. Doğru olmayan variant hansıdır?
- sahələrarası;
- sahədaxili;
- bölmədaxili;
- rəqiblərarası;
- dövlətlərarası;

101 Təşkilatlar hansı mühit amilləri ilə əhatədə fəaliyyət göstərirlər?
- [x] daxili və xarici mühit amilləri ilə;
- [ ] ancaq daxili mühit amilləri ilə;
- [ ] birbaşa xarici mühit amilləri ilə;
- [ ] ancaq xarici mühit amilləri ilə;
- [ ] dolayı xarici mühit amilləri ilə;

102 Təşkilatın uğur qazanmasının tərkib hissələrinə aid deyil. Doğru olmayan variant hansıdır?
- [ ] yaşamaq qabiliyyəti;
- [x] yeni bazarları fəth etmək qabiliyyəti;
- [ ] mövcud olmaq qabiliyyəti;
- [ ] qəbul edilən qərarların praktiki olaraq reallaşdırlması;
- [ ] nəticəlik və effektivlik;

103 Özündə müvəqqət, sərbəst pul vəsaitlərini cəmləşdirən, onu kredit şəklində müvəqqəti istifadəyə verən müəssisələr, idarələr və şəxslər arasındakı qarşılıqlı hesblaşmalarda vasitəçilik edən ixtisaslaşdırılmış maliyyə necə adlanir?
- [ ] Maliyyə institutları;
- [ ] Kredit təşkilatı;
- [ ] Vasitəçi təşkilat;
- [x] Bank;
- [ ] Birja;

104 İdarəçilik fəaliyyətinin hansı əsas funksiyası planlaşdırma prosesi çərçivəsində yerinə yetirilir?
- [ ] Resursların bölüşdürülməsi, adaptasiya, təşkilatın məqsədinin öyrənilməsi;
- [ ] Adaptasiya, daxili işgüzarlıq, əməksevərlik, kordinasiya, motivasiya;
- [x] Resursların bölüşdürülməsi, xarici mühitə adaptasiya, daxili kordinasıya, təşkilatın strateji uzaqgörənliyi;
- [ ] Daxili adaptasiya, xarici mühitə uyğunlaşmaq;
- [ ] Motivasiya, resursları bölüşdürmək, daxili adaptasiya, şəraitə uyğunlaşmaq;

105 Menecmentin hansı funksiyası işin plana müvafiq təşkilini yerinə yetirir?
- [ ] nəzarət;
- [x] təşkiletmə;
- [ ] rəhbərlik;
- [ ] qərar qəbul etmək;
- [ ] kommunikasiya;

106 İşin təşkilinin mərhələləri hansı variantda düzgün verilmişdir?
- [x] işin bölüşdürülməsi, məntiqi blokda vəzifələrin qruplaşdırılması, işin kordinasiyası;
- [ ] işin bölüşdürülməsi, işin kordinasiya, işin icrası, qərar qəbulu;
- [ ] kommunikasiya, işin bölüşdürülməsi, işlərin qruplaşdırılması, daxili kordinasiya;
- [ ] motivasiya, işin koordinasiyası, icraya nəzarət, qiymətləndirmə;
- [ ] nəzarət, kommunikasiya, qərar qəbulu;

107 Müəyyən motivləri oyatmaq (aktivləşdirmək) yolu ilə insanı hər hansı fəaliyyətə sövq etmək üçün insana edilən təsir prosesinin necə adlanması hansı variantda düzgün verilmişdir?
- [x] motivləşdirmə;
- [ ] məqsədyönlülük;
- [ ] təhriketmə;
- [ ] qıcıqlandırma;
- [ ] yönəltmək;

108 Sahibkar nə naminə iqtisadi risk edən mülkiyyətçidir? Doğru variant hansıdır?
- [x] mənfəət;
- [ ] xeyirxahlıq;
- [ ] özünü realizə üçün;
- [ ] qürurlanmaq;
- [ ] işçiləri işlə təmin etmək;

109 İdarəetmə sahəsində tanınmış olan hansı mütəxəssis kiçik qruplarda sosial münasibətləri öyrənmişdir və o, öz baxışlarını “Yaradıcı təcrübə (1924)”, “Enerjili idarəetmə (1941)”, “Azadlıq və tabeçilik (1949)” kitablarında əks etdirilmişdir?
- [ ] Anri Fayol;
- [ ] Abraham Maslou;
- [x] Meri P. Follet;
- [ ] Fredrik Teylor;
- [ ] Elton Meyo;

110 Qeyd edilənlərdən biri resurslara aid deyil?
- material;
- kapital;
- informasiya;
- insanlar;
- rəqiblər;

111 Hər hansı bir rəhbərin mütəxəssis ola bilməməsi hansı təşkilatı quruluş formasının nöqsanlarından biridir?
- matris;
- proqram-məqsədli yanaşma;
- divizional;
- xətti-funksional;
- xətti;

112 Aşağıdakı variantların hansında nəzarətin formaları düzgün təsnifləşdirilmişdir?
- faktiki, son, gələcək;
- ilkin, cari, son;
- keçmiş, indiki, gələcək;
- ilkin, keçmiş, gələcək;
- cari, faktiki, son;

113 Müəssisə nəyə deyilir?
- xarici mühitlə əlaqəsi olmayan, qapalı, gizli fəaliyyət göstərən təşkilatlara
- özəl sektorda fəaliyyət göstərən qurumlara
- mülkiyyət formasından asılı olmayaraq ictimai tələbatın ödənilməsi və qazanc əldə edilməsi məqsədilə məhsul istehsal edən, işlər görən və xidmətlər göstərən, qanuna müvafiq yaradılan hüquqi şəxs olan müstəqil təsərrüfatçılıq subyektlərə
- bazar şəraitinə uyğun məhsul istehsal edən firmalara
- humanitar yardım missiyasını yerinə yetirən qurumlara

114 Təşkilatda rəhbərlikdən diqqət tələb edən daxili dəyişənlər hansı variantda düzgün qeyd edilməyib?
- texnologiya;
- rəqabət;
- vəzifə;
- quruluş;
- məqsəd;

115 Optimal təşkilat ideyası kim tərəfindən irəli sürülmüşdür?
- O. Şeldon
- H. Emerson
- H. Qant
- Q. Xopf
- L. Cilbert

116 Qeyd edilənlərdən biri xarici mühitin xarakteristikasına aid deyidir:
- amillərin bir-biri ilə qarşılıqlı əlaqədə olmaları
- statiklik (dəyişməzlik)
- mürəkkəblik
- qeyri-müəyyənlik
- mütəhərriklik (dəyişkənlik)

117 Səhmdar cəmiyyətin formaları hansı variantda düzgün verilib?
- açıq və qapalı;
- qapalı, açıq, əlavə məsuliyyətli;
- açıq, qapalı, birja;
- açıq, məhdud;
- açıq, qapalı və tam məhdud;

118 Mülki məcəliyyə uyğun olaraq nizamnamə kapitalı müəyyən sayda səhmlərə bölünən cəmiyyət necə adlanır?
- səhmdar cəmiyyət;
- əlavə məsuliyyətli cəmiyyət;
- şərikli müəssisələr;
- məhdud məsuliyyətli cəmiyyət;
- dövlət müəssisəsi;

119 Qısa müddətdə xeyli vəsait cəlb etmək imkanı olan; bir şəxs tərəfindən yaradıla bilən; cəmiyyətin üzvlərinin onun öhdəliklərin görə

məhdud məsuliyyət daşımaq kimi üstünlükləri olan təşkilatın adı hansı variantda doğru verilmişdir?
- Əlavə məsuliyyətli cəmiyyət;
- Məhdud məsuliyyətli cəmiyyət;
- Dövlət müəssisəsi;
- Qapalı tipli səhmdar cəmiyyət;
- Açıq tipli səhmdar cəmiyyət;

120 Qrupun təşkilat kimi qəbul edilməsi üçün neçə tələb olmalıdır?
- 3;
- 4;
- 6;
- 5;
- 2;

121 Qeyri-formal təşkilat dedikdə nə başa düşülür?
- vaxtaşırı fəaliyyətdə olan birliklər;
- müvəqqəti fəaliyyət göstərən şöbələr;
- daimi fəlaiyyət göstərən bölmələr;
- formal təşkilatların tərkibində kortəbii yaranmış qruplar;
- rəsmi statusa mailk olan təşkilatlar;

122 Təşkilatda rəhbərlikdən diqqət tələb edən daxili dəyişənlərə aşağıdakılar aiddir: Doğru cavab hansı variantda verilmişdir?
- Taktika, heyət, iqtisadiyyatın inkişaf dinamikası;
- Məqsəd, rəqiblər, təşkilati quruluş;
- Vəzifə, heyət, texnika və texnologiya;
- Dövlət orqanları, strategiya, rəqiblər;
- İstehlakçılar, missiya, məqsəd;

123 Qeyd edilənlərdən biri resurslara aid edilmir:
- informasiya;
- rəqiblər;
- insanlar;
- material;
- kapital;

124 Bu məktəbin nümayəndələri hesab edirdilər ki, müşahidə, ölçü, məntiq və təhlildən istifadə edərək əl əməyinin çoxlu əməliyyatlarını təkmilləşdirmək olar və nəticədə işlər daha səmərəli yerinə yetirilər:
- psixologiya və insan münasibətləri məktəbi
- idarəetmə elmi məktəbi
- klassik və ya inzibati məktəb
- elmi idarəetmə məktəbi
- davranış məktəbi

125 Heyət üzvlərində birliyi yaradılması Anri-Fayolun hansı prinsipində nəzərdə tutulmuşdur?
- İşçilər üçün iş yerinin sabitliyi
- İstiqamətin vahidliyi
- Əmək bölgüsü
- Korporativ ruh
- İşçilərin əməyinin düzgün qiymətləndirilməsi

126 Hər kəs üçün yer və hər kəsin yerində olması fikri Anri –Fayolun hansı idarəetmə prinsipdə nəzərdə tutulmuşdur?
- Əmək bölgüsü prinsipində
- Qayda-qanun prinsipində
- Ədalətlilik prinsipində
- İstiqamətin vahidliyi
- Nizam-intizam prinsipində

127 Teylorun hansı tələbəsi kartl-sxemlər tərtib etmiş və liderlik nəzəriyyəsi hazırlanmasında iştirak etmişdir?
- A. Fayol
- L. Cilbert
- Henri Qant
- H. Emerson
- Q. Xorf

128 Hansı variantda klassik idarəetmə məktəbinin müəyyən etdiyi üsullar (metodlar) düzgün verilmişdir?

- sosial-psixoloji, avtoritar;
- iqtisadi, inzibati-sərəncam, sosial-psixoloji;
- iqtisadi, demokratik;
- inzibati-sərəncam, iqtisadi, demokratik;
- avtoritar, demokratik, liberal;

129 Səlahiyyət nədir?
- Qərar qəbul etmək hüququdur;
- Təşkilatın idarəedilməsinin əsas qaydalarıdır;
- Verilən qərarlar görə cavabdehlikdir;
- İnsanlara məqsədyönlü təsirdir;
- İnsanlara təsir üsuludur;

130 Anri-Fayolun idarəetmə nəzəriyyəsinə olan əsas töhfəsi ondan ibarət olmuşdur ki, o, idarəetməni bir universal proses kimi nəzərdən keçirmiş, hansı ki, bir-biri ilə qarşılıqlı əlaqədə olan ..... məcmusudur. Cümləni tamamlayın.
- Rəhbərlik üslublarının
- İdarəetmə vasitələrinin
- İdarəetmə funksiyalarının
- İdarəetmə metodlarının
- İdarəetmə prinsiplərinin

131 Ətraf mühitdən asılılıq baxımından sistemin növləri hansı variantda doğru verilmişdir?
- açıq, tam;
- açıq, natamam;
- qapalı, yarımçıq;
- daimi, vaxtaşırı;
- açıq, qapalı;

132 Menecmentin digər insanların köməyi ilə yerinə yetirilməsi təmin edilən iş olduğunu kim söyləmişdir?
- M. Veber
- F. Teylor
- M. Follet
- A. Fayol
- H. Qant

133 Xüsusi kapitalın aktivlərə hasili faiz ifadəsində- bu göstərici nəyi xarakterizə edir?
- rentabellik göstəricisini
- manevretmə əmsalını
- tədiyyə qabiliyyətliyi əmsalını
- likvidlilik əmsalını
- firmanın mənfəətini

134 Müflisləşməyə səbəb olan xarici mühit amilləri neçə yerə bölünür?
- 2;
- 6;
- 3;
- 4;
- 5;

135 Bu- müəyyən işin yerinə yetirilməsi üçün zəruri əmək məsrəflərinin təyin edilməsi və əmək normasının müəyyənləşdirilməsidir:
- heç biri
- əməyin normalaşdırılması
- əmək haqqının hesablanması
- əməyin mühafizəsi
- əməyin humanistləşdirilməsi

136 Bu məktəbin diqqəti bütün təşkilatın fəaliyyətinin təkmilləşdirilməsinə yönəlmişdir:
- davranış məktəbi
- elmi idarəetmə məktəbi
- idarəetmə elmi məktəbi
- klassik və ya inzibati məktəb
- psixologiya və insan münasibətləri məktəbi

137 Mikroxronometr adlı cihazı kəşf edən və onu kinokamera ilə işlədən və hansı hərəkətlərə nə qədər vaxt sərf edildiyini müəyyən etməyə çalışan alim kim olmuşdur?

- Emmerson
- Xopf
- Gilbertlər
- Anri-Fayol
- Teylor

138 Bu məktəbin məqsədi universal idarəetmə prinsiplərinin işlənib hazırlanması olmuşdur:
- psixologiya və insan münasibətləri məktəbi
- elmi idarəetmə məktəbi
- davranış məktəbi
- klassik və ya inzibati məktəb
- idarəetmə elmi məktəbi

139 “O, administratorun müəyyən etdiyi çərçivədə siyasəti yerinə yetirir:”
- menecment
- marketinq
- təhliletmə
- administrasiya
- təşkiletmə

140 Təşkilatların fəaliyyətinə təsir edən xarici mühit amilləri ilə bağlı səhv fikri göstərin:
- Xarici mühit amilləri qeyri-müəyyəndir
- Xarici mühit amilləri bir-bri ilə qarşılıqlı təsirdədirlər
- Xarici mühit amilləri rəhbərin qəbul etdiyi qərarların nəticəsidir
- Xarici mühit amilləri birbaşa və dolayı amillərə bölünür
- Xarici mühit amilləri dinamikdir

141 Təşkilatın yetkinlik mərhələsi ilə bağlı səhv fikri göstərin:
- Başlıca məqsəd müntəzəm, balanslaşdırılmış mənfəətin əldə olunmasıdır
- Mərkəzləşmə meyllərinin yüksək olması, səlahiyyətlərin ötürülməməsinə meyl
- Fərdi imicin formalaşması
- Bazarın ələ keçirilməsi
- Koordinasiyanın güclü səviyyəsi

142 Təşkilatın həyat tsikli ilə bağlı fikirlərdən biri səhvdir:
- Təşkilatın yaranma mərhələsinin əsas məqsədi-bazara çıxış strategiyasını hazırlamaq və bazara çıxmaqdır
- Təşkilatın köhnəlməsi və ya qocalması mərhələsinin əsas məqsədi- əldə ediliş nəticələrin qorunub saxlanılmasından ibarətdir
- Təşkilatın sonuncu mərhələsi ya dirçəliş ilə, ya da iflas ilə sonunclana bilər
- Təşkilatın həyat tsikli beş mərhələdən ibarətdir
- Yetkinlik mərhələsinin əsas fərqləndirici xüsusiyyəti qısamüddətli mənfəət və sürətli yüksəlişdir

143 Qrupun “təşkilat” adlandırılması üçün hansı şərtlər olmalıdır? 1.özünü qrupun üzvü hesab edən ən azı iki nəfərin mövcudluğu 2.qrup üzvlərinin münaqişəyə meylli olmaması 3.qrup üzvlərinin ən azı bir ümumi məqsədinin olması 4.qrup üzvlərinin bir xarakterdə olması 5.qrup üzvlərinin bir yerdə işləmək arzularının olması
- 1,3,5;
- 1,2,5;
- 4,5;
- 2,3,5;
- 2,4,5;

144 Qeyri-rəsmi liderlərin növləri hansı variantda düzgün verilmişdir?
- operativ, qeyri-rəsmi;
- pozitiv, neqativ;
- neqativ, operativ;
- neqativ, inandırıcı;
- pozitiv, stimullaşdırıcı;

145 Aşağıdakı variantların hansında verilən xüsusiyyət yaxşı liderin səciyyəvi xüsusiyyəti deyil?
- görmə;
- əmr vermək bacarığı;
- özünü tanıma;
- özünü idarəetmə;
- motivasiya etmək bacarığı;

146 XIX əsrin axırları cə XX əsrin əvvələrində Azərbaycanda sahibkarlığın ilkin elementləri formalaşdırılarkən Z. Tağıyev, M. Nağıyev, Ş.

Əsədullayev, M. Muxtarov və başqaları hansı etik prinsiplərə üstünlük vermişdir? Düzgün olmayan variant hansıdır?
- özünə rəva bilmədiyini başqalarına da rəva bilməmək;
- məsuliyyət;
- özünə rəva bilmədiyini başqaları ilə bölüşmək;
- halalıq;
- verilən sözə əməletmə;

147 ABŞ-da, AFR-də, İngiltərədə ən dəyərli və bahalı "əmtəə" kimi nə göstərilir? Doğru variantı tapın.
- zaman;
- kapital;
- iqtisadi potensial;
- texnologiya;
- səhm;

148 Bir fərdin (şəxsin) müəyyən səbəblər üzrə digərləri ilə münasibətləri qurmağa üstünlük verdiyi qaydaların məcmusu necə adlanır? Doğru variant hansıdır?
- rəhbərlik üslubu;
- dolayı əlaqə;
- birbaşa əlaqə;
- kommunikasiya üslubu;
- əks əlaqə;

149 İki və daha çox insan arasındakı məlumat mübadiləsi necə adlanır?
- şəxsi münasibətlri;
- informasiya;
- şayələrin yayılması kanalı;
- kommunikasiya;
- şaquli əlaqələr;

150 İdarəetmə qərarlarının işlənib hazırlanması, qəbulu və onun icrasına nəzarət neçə mərhələdən ibarətdir?
- 6;
- 3;
- 9;
- 5;
- 7;

151 Formasına görə idarəetmə qərarları hansı variantda düzgün təsnifləşdirilib?
- Kodlaşdırılmış, strateji, taktiki;
- Texnoloji, şifahi, yazılı;
- Şifahi, təşkilati, yazılı;
- Şifahi, operativ, kodlaşdırılmış;
- Yazılı, şifahi, kodlaşdırılmış;

152 Qərar – insanın və ya qrupun formalaşmış ..... ilə əlaqədar bir neçə fəaliyyət variantıdan birinin seçilməsidir. Buraxılmış sözlə cümləni tamamla.
- situasiya;
- problem;
- realıq;
- perpektiv;
- forma;

153 Bilavasitə işlərin yerinə yetirilməsi gedişində həyata keçirilən nəzarət hansı variantda düzgün verilmişdir?
- cari;
- ilkin;
- son;
- yekun;
- operativ;

154 Müəssisənin öz qısa müddətli öhdəliklərini ödəmə bacarığı necə adlanır?
- sağlamlaşdırma;
- likvidlik;
- ödəniş qabiliyyəti;
- maliyyə qabiliyyəti;
- borcunu qaytarma qabiliyyəti;

155 Müflisləşmə qorxusu biznesmenləri və investorları daha çox hansı işgüzar adam kimi davranmağa şovq edir?
- [x] sahibkarlıq kimi;
- [ ] menecer kimi;
- [ ] payçı kimi;
- [ ] risk edən şəxs kimi;
- [ ] səhmdar kimi;

156 Strateji menecmentin banisi kim olmuşdur?
- [ ] A. Damodaran;
- [ ] Meskon;
- [ ] P. Druker;
- [x] İ. Ansoff;
- [ ] B. Novruzov;

157 İnsanlara məxsus olan üç tələbat (uğur, aidiyyat, hakimiyyət) nəzəriyyəsinin müəllifi kimdir?
- [ ] H. Qant;
- [x] Mak-Kleland;
- [ ] A. Maslou;
- [ ] E. Meyo;
- [ ] V. Vurum;

158 Mənbəyi müəssisənin rəhbərliyi, müştərilər, sifarişçilər, tərəfdaşlar hesab edilən motivlər necə adlandırılır? Doğru olan variant hansıdır?
- [x] xarici motivlər;
- [ ] maddi motivlər;
- [ ] mənəvi motivlər;
- [ ] xüsusi motivlər;
- [ ] daxili motivlər;

159 İnsanların müəyyən fəaliyəti icra etməyə sövq edən hərəkətverici qüvvələrin məcmusunu özündə birləşdirən anlayış hansı variantda düzgün verilmişdir;
- [ ] həvəsləndirmək;
- [ ] qıcıqlandırma;
- [x] motivasiya;
- [ ] stimullaşdırma;
- [ ] kordinasiya;

160 Birjaların növləri hansı variantda tam və doğru verilmişdir?
- [ ] fond, əmtəə, istehsal, istehlakçı;
- [ ] əmtəə, hazır məhsul, kadr resursları;
- [ ] əmtəə, fond, valyuta, istehlak;
- [x] əmtəə, fond, valyuta, əmək;
- [ ] əmək, pul, valyuta, maliyyə;

161 Qısa müddətdə xeyli vəsait cəlb etmək imkanı olan; bir şəxs tərəfindən yaradıla bilən; cəmiyyətin üzvlərinin onun öhdəliklərin görə məhdud daşımaq kimi üstünlükləri olan təşkilatın adı hansı variantda doğru verilmişdir?
- [ ] Əlavə məsuliyyətli cəmiyyət;
- [ ] Qapalı tipli səhmdar cəmiyyət;
- [x] Məhdud məsuliyyətli cəmiyyət;
- [ ] Səhmdar cəmiyyət;
- [ ] Açıq tipli səhmdar cəmiyyət;

162 Dövlət müəssisələrinin idarə edilməsinə verilən hüquqlar hansı variantda doğru verilmişdir?
- [ ] sərişteli idarəetmə, mülkiyyətin bir hissəsini satmaq;
- [ ] təsərrüfatı aparmaq, mülkiyyəti bölmək;
- [ ] operativ idarəetmə, səlahiyyətləri ötürmək;
- [ ] operativ idarəetmə, sərişteli idarəetmə;
- [x] təsərrüfatı aparmaq, operativ idarəetmə;

163 Təşkilatı əhatə edən xarici mühit amillərinin növləri hansı variantda düzgün verilmişdir?
- [x] birbaşa və dolayı;
- [ ] birbaşa və daimi;
- [ ] dolayı və sahə daxili;
- [ ] sahədaxili və qrupdaxili;
- [ ] dolayı, daimi;

164 Qeyri-formal təşkilat dedikdə hansı təşkilatın tərkibindəki qruplar nəzərdə tutulur?
- çox məqsədli;
- formal;
- daimi;
- sadə;
- mürəkkəb;

165 Rəhbərlik üslublarının neçə növü vardır?
- 11;
- 5;
- 9;
- 3;
- 7;

166 Q. Xorf tərəfindən hansı təşkilat ideyası irəli sürülmüşdür?
- qapalı;
- optimal;
- mürəkkəb;
- açıq;
- sadə;

167 İdarəetmənin 14 prinsipinin müəllifi kimdir?
- L. Gilbert;
- A. Fayol;
- A. Maslou;
- H. Emerson;
- H. Qant;

168 Resurslara malik olmaq, idarəetmədə əmək bölgüsü və ətraf mühitdən asılılıq nəyin xüsusiyyətləridir?
- yalnız bankın;
- insanların;
- təşkilatın;
- birgə işləyənlərin;
- bölmənin;

169 Menecment nədir? Sualına kim belə cavab vermişdir: “Menecment – digər insanların köməyi ilə yerinə yetirilməsi təmin edilən işdir”. Doğru variant hansıdır?
- E. Meyo;
- M. Follet;
- H. Qant;
- F. Teylor;
- A. Smit;

170 İdarəetmə dedikdə idarəetmə…… tərəfindən idarəetmə obyektinə yönəldilən məqsədyönlü təsir başa düşülür. Buraxılmış söz hansı variantda düzgün verilmişdir?
- sahibkar;
- menecer;
- təşkilat rəhbəri;
- işçilər;
- subyekti;

171 Hər hansı bir qrupu və ya fərdi ümumi mənafeyə uyğun olaraq müəyyən məqsədə çatmaq üçün öz arxasınca apara bilən şəxs dedikdən kim başa düşülür?
- menecer;
- diktator;
- administrator;
- lider;
- rəhbər;

172 Alman menecmentinin nəzəri dəyərləri əsasən hansı şəxsin fikirlərindən götürülmüşdür?
- H. Fordun;
- A. Fayolun;
- E. Meyonun;
- F. Teylorun;
- Maks Veberin;

173 “Kollektivçilik, korporativlik, qrupçuluq”, “İş stajına və yaşa görə əmək haqqı”, “ömürlük muzd” hansı ölkə menecmentinin üç əsas özülüdür?
- ABŞ;
- Yapon;
- Çin;
- İngilis;
- Alman;

174 “Azad bazarın olması” “istehsal prosesinin sənaye üsuluna arxalanması”, “korporasiyanın biznesin təşkilinin əsas forması olması” hansı ölkənin müasir menecmentinin üç əsas özülüdür?
- Qərbi Avropa;
- Yapon;
- ABŞ;
- Almaniya;
- Çin;

175 Rəhbərin yaratdığı kommunikasiya şəbəkəsində əlaqələr hansı variantda düzgün təsnifləşdirilib?
- şaquli əlaqələr, operativ əlaqələr, üfüqi əlaqələr;
- dioqanal əlaqələr, birbaşa əlaqələr, dolayı əlaqələr;
- üfüqi əlaqələr, çarpaz əlaqlər, birbaşa əlaqələr;
- üfuqi əlaqələr, operativ əlaqələr dioqanal əlaqələr;
- şaquli əlaqələr; üfuqi əlaqələr, dioqanal əlaqələr;

176 Şəxslərarası kommunikasiya yolunda duran manelərin üç növünü fərqləndirilir. Doğru variant hansıdır?
- semantik manelər; dolayı əlaqələr; neqativ əks əlaqə;
- neqativ (mənfi) əks əlaqə; pozitiv (müsbət) əks əlaqə; neytrla əks əlaqə;
- semantik manelər; neqativ (mənfi) əks əlaqə; birbaşa əlaqə;
- neqativ (mənfi) əks əlaqə; pozitiv əlaqə; pozitiv əks əlaqə;
- qəbul etmə ilə şərtlənən manelər; semantik manelər; neqativ (mənfi) əks əlaqə;

177 Qərarlar 4 (dörd) əsas meyara görə qruplaşdırılır. Düzgün olmayan variant hansıdır?
- tsiklik;
- sistemlik;
- tabeçilik;
- ierarxiya;
- gözlənilməzlik;

178 İdarəetmə qərarlarının əsas fərqləndirici xüsusiyyətləri aşağıdakı variantların hansında düzgün təsnifləşdirilmişdir?
- peşəkarlıq, məqsəd, əmək məhsuldarlığı, əmək bölgüsü;
- məqsəd, vəzifələr, əmək bölgüsü, peşəkarlıq;
- məqsəd, nəticələr, əmək bölgüsü, peşəkarlıq;
- plan, nəticələr, vəzifələr;
- nəticələr, əmək bölgüsü, əmək məhsuldarlığı, peşəkarlıq;

179 Qərar-insanın..... fəaliyyətinin nəticəsi olub hər hansı bir nəticəyə və tələb edilən fəaliyyətə gətirib çıxarır. Buraxılmış sözlə cümləni tamamlayın.
- əməli;
- operativ;
- təfəkkür;
- yaradıcı;
- strateji;

180 Qiymətləndirmə standartlarının və meyarlarının işlənib hazırlanması nəzarət prosesinin neçənci (hansı) mərhələsidir?
- 5;
- 2;
- 3;
- 1;
- 4;

181 Həyata keçirilmə vaxtına görə nəzarət formaları hansı variantda düzgün təsnifləşdirilmişdir?
- Cari, müasir və gələcək;
- Keçmiş, dövrü, son;
- İlkin, son, xəbərverici;
- Keçmiş, indiki, gələcək;
- İlkin, cari, son yekun;

182 Bütün istehsal sistemləri və yarımsistemləri, funksional və xətti sistemlər, istehsal, tədavül və sair sahələr nəzarətin nəyi ola bilər?
- Predmeti;
- Subyekti;
- Obyekti;
- Prinsipi;
- Missiyası;

183 Nəzarətin başlıca məzmunu yoxlamadan, baş verə biləcək nöqsanların qarşısını almaqdan ibarətdir. Bu baxımdan nəzarət həm də..... xarakteri daşıyır. Buraxılmış sözü yazmaqla fikri tamamlayın.
- Xəbərdarlıq;
- Məlumatlandırmaq;
- Doğrultmaq;
- Oyatmaq;
- Məlumat vermək;

184 Sanasiyanın xarakterinə görə nəzərdə tutulan tədbirlər və qaydalar geniş yayılmış iki növ taktikada həyata keçirilir. Döğru olan variant hansıdır?
- Müdafiə, müdaxilə;
- Təhriketmə, müdaxilə;
- Hücum, təhriketmə;
- Müdafiə, hücum;
- Müdafiə, gözləmə;

